# ÇEVİK CAVAB MEXANİZMİ ÜMUMİ BAXIŞ

## Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq Proqramı

http://partnership-governance2-eu.coe.int

Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe



**Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq Proqramı (YİT)** Çevik Cavab Mexanizminin baza proqramıdır. O, Şərq Tərəfdaşlığı ölkələri (Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası, Ukrayna və Belarus) üçün Avropa İttifaqı ilə Avropa Şurası arasında əməkdaşlıq proqramıdır. Məqsəd bölgənin sabitliyini və dayanıqlığını gücləndirmək və daha dəqiq desək, Şərq Tərəfdaşlığı üzrə 2020-ci il hədəflərinə çatmaq və ölkələrin Avropa Şurası qarşısında götürdüyü öhdəliklərə əməl etməsini dəstəkləməkdir. Buna, xüsusilə də aidiyyəti ölkələrdə milli qanunvericilik və təcrübənin Avropa standartlarına uyğunlaşdırılaraq təkmilləşdirilməsi yolu ilə nail olunur. Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramı korrupsiyaya, çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, məhkəmə islahatları, ayrıseçkiliklə mübarizə və həssas qrupların və azlıqların hüquqlarının müdafiəsi sahələrini əhatə edir.

YİT aşağıdakı sahələrdə dəstək verməklə iki istiqamətli yanaşma yürüdür:

- Avropa standartlarına uyğunluğun artmasına nail olmaq üçün texniki yardım.
- Avropa Şurasının Çevik Cavab Mexanizmi (ÇCM) vasitəsilə prioritet sahələrdə islahatlarla əlaqəli hüquqi məsləhət.

## ÇEVIK CAVAB MEXANIZMI (ÇCM)

ÇCM Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqamının bir vasitəsidir ki, onun vasitəsilə Hüquq vasitəsilə Demokratiya uğrunda Avropa Komissiyası (daha çox Venesiya Komissiyası kimi tanınır), müvafiq ölkələrdən və ya Avropa Birliyindən qanunvericilik təhlili və əlaqəli yardım üzrə verilmiş tələblərə cavab vermək üçün adekvat hüquqi məsləhət verə bilər.



**Hüquq vasitəsilə Demokratiya uğrunda Avropa Komissiyası (Venesiya Komissiyası)**

Avropa Şurasının konstitusiya məsələləri üzrə məşvərətçi orqanıdır. Onun rolu üzv dövlətlərə *hüquqi məsləhət təmin etmək*, xüsusilə də öz hüquqi və institusional strukturlarını demokratiya, insan hüquqları və qanunun aliliyi sahələrində Avropa standartlarına və beynəlxalq təcrübəyə uyğunlaşdırmaq istəyində olan ölkələrə kömək etməkdir.

**www.venice.coe.int**

## ÇCM-in ƏHATƏ DAİRƏSİ NƏDİR?

Coğrafi baxımdan ÇCM Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası, Ukrayna və Belarusu əhatə edir. Onun fəaliyyət dairəsinə, Venesiya Komissiyasının səlahiyyətlərinə aid olan bütün məsələlər, xüsusilə də aşağıdakılar daxildir:

- demokratik təsisatlar və təməl hüquqlar;
- seçkilər, referendum və siyasi partiyalar;
- konstitusion və tipik ədalət mühakiməsi.

## VENESİYA KOMİSSİYASINA KİM TƏLƏB TƏQDİM EDƏ BİLƏR?

Aidiyyəti ölkələrin dövlət başçıları, parlament spikerləri, nazirlər və digər hökumət üzvləri ekspert rəyi üçün müraciət edə bilərlər. Avropa İttifaqı, eləcə də Avropa Şurası orqanları (yəni, Baş katib, Nazirlər Komitəsi, Parlament Assambleyası və Yerli və Regional Hökumətlər Konqresi) ekspertiza üzrə



tələbləri verə bilər. Venesiya Komissiyasının *amicus curiae* (müstəqil ekspert) rəylərinə dair tələblər konstitusiya məhkəmələri tərəfindən də verilə bilər.

## TƏLƏBİN VERİLMƏSİ ÜÇÜN MEYARLAR NƏLƏRDİR?

Səlahiyyətli bir qurum tərəfindən təqdim edilməklə yanaşı, ÇCM tələbləri aşağıdakı bütün meyarlara cavab verməlidir:

- Demokratik təsisatlar və təməl hüquqlar; seçkilər, referendum və siyasi partiyalar; və konstitusiya və tipik ədalət mühakiməsi daxil olmaqla Venesiya Komissiyasının ekspertiza sahəsində olmalı;
- Müvafiq ölkədə müəyyən edilmiş konkret ehtiyaca cavab verməli;
- Strateji əhəmiyyət kəsb edən əsas siyasət aspekti ilə əlaqəli olmalı;
- Avropa Şurası və ya Avropa Komissiyası tərəfindən artıq təmin edilmiş digər dəstəklərlə üst-üstə düşməməlidir.

## TƏLƏB NECƏ YAZILIR VƏ İŞLƏNİLİR?

Tələblər Avropa Şurasının Baş katibinə və ya Venesiya Komissiyasının prezidentinə yazılmalı və göndərilməlidir. Tələblərdə ekspertizanın tələb edildiyi qanunvericiliyin adı və növü, ekspertiza və ya qanunvericiliyə düzəlişlərin edilməsi üçün müraciətin səbəbləri və həmin ekspertizanın təmin edilməsindən sonra yeni qanunvericiliyin (və ya mövcud qanunvericiliyə düzəlişlərin) qəbul edilməsi üçün planlaşdırılmış vaxt qrafiki daxil olmaqla mümkün qədər çox məlumat olmalıdır.

Qəbul edildikdən sonra tələblər işlənəcək və səlahiyyətlilərə vaxt cədvəli barədə məlumat veriləcəkdir. Ən tez bir zamanda ekspertiza təmin ediləcək.

## TƏLƏB HARAYA ÜNVANLANMALIDIR?

Xanım Marija PEJČINOVIĆ BURIĆ
Avropa Şurasının Baş Katibi
Avropa Şurası
F-67075 Strasburq Cedeks
Fransa
Tel: + 33 3 88 41 20 00
Faks: + 33 3 88 41 27 99

Cənab Gianni BUQUICCHIO
Venesiya Komissiyasının Prezidenti
Avropa Şurası
67075 Strasburq Cedeks
Fransa
e-mail: venice@coe.int
Faks: +33 3 88 41 37 38

## SUALLARI ÜNVANLAMAQ OLAR:

Proqramlar üzrə Baş Direktorluq
Avropa Şurası
Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq
Strasburq Cedeks 67075 FRANSA
E-mail: odgp_pgg@coe.int
Faks: +33 3 90 21 46 31

## ƏLAVƏ MƏLUMAT ÜÇÜN:

@partnershipgovernance

@CoeEapPCF

odgp_pgg@coe.int

http://partnership-governance2-eu.coe.int

PREMS 182819– Photos: Council of Europe and Shutterstock

AZE

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. Avropa İttifaqına üzv olan bütün dövlətlər daxil olmaqla, təşkilat 47 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə tətbiq edilməsinə nəzarət edir.

**www.coe.int**

Avropa İttifaqına üzv dövlətlər öz təcrübələrini, resurslarını və müqəddəratlarını bir-biri ilə bağlamaq qərarına gəlmişlər. Onlar birlikdə, mədəniyyət müxtəlifliyini, tolerantlığı və fərdi azadlıqları qorumaqla sabitlik, demokratiya və dayanıqlı inkişaf zonası yaratmışlar. Avropa İttifaqı öz nailiyyətlərini və dəyərlərini öz hüdudlarından kənarda olan ölkələr və xalqlarla bölüşmək əqidəsinə sadiqdir.

**www.europa.eu**

Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe